# Zəngəzur dəhlizi: Azərbaycan – Türkiyə əməkdaşlığına açılan yeni qapı

***Qardaş Türkiyədə ilahi gözəlliklərin baş-başa verdiyi Egey bölgəsi haqqında uzun illər heyranlıqla yazanlardan biri də mən olmuşam. Bu hədsiz maraq zaman ötdükcə nəinki azalmayıb, bəlkə, bir az da artıb. Doğrudan da, Türkiyənin 3-cü böyük şəhəri olan İzmirin tarixi zənginliklərinə, təbii gözəlliklərinə valeh olmamaq, Şirincə, Foca, Çeşmə, Alaçatı və saymaqla bitməyən turizm ünvanlarının bənzərsiz görüntüləri və mədəni dəyərləri önündən heyrətlənmədən keçmək mümkün deyil.***

***Bu bölgədə hər addımda dünya sivilizasiyasının inciləri ilə rastlaşırsan. Antik Efes və Məryəm Ana kimi tarixi məkanlar, dünyanın 7 möcüzəsindən biri olan Artemis məbədi də İzmirdə yerləşir. Bu şəhərin 3 milyondan çox əhalisi, 8 min 500 illik tarixi var. İzmir tarixi mənbələrdə Homerin vətəni kimi də təqdim olunur. Makedoniyalı İsgəndərin də burada ayaq saxlayıb şəhəri yenidən dirçəltdiyi söylənir.***

***İzmir çağdaş günlərin ziyalılar şəhəridir. Onun cox mehriban və diqqətcil insanlarının Türkiyə Cümhuriyyətinin qurucusu Atatürkə məhəbbətləri hər addımda hiss olunur. Böyük Mustafa Kamalın şəhərin Qaziəmir səmtində təbii qayada yonulmuş əzəmətli büstü, Ankara tərəfdən girişdə isə möhtəşəm heykəli var. Şəhərin mərkəzində və meydanlarında bir-birinə bənzəməyən abidələri də bu dahi şəxsiyyətin böyüklüyünə olan ehtiramın göstəricisidir. Az qala, bütün bina və mənzillərdən asılan Türkiyə bayraqları isə təkcə göz oxşamır, həm də insanların öz dövlətçiliklərinə və bayraqlarına olan sevgisinin ifadəsidir.***

***Turistləri hər zaman heyrətləndirən İzmir azərbaycanlılar üçün də doğmadır. Adətən, bu şəhəri Bakıya çox oxşadırlar. O da Bakı kimi dənizsahili və küləklər şəhəridir. Amma İzmir Bakıdan 3 dəfə böyükdür, həm də dənizindən neft qoxusu gəlmir. Azərbaycanın xaricdə ən böyük sərmayə qoyduğu olan Petkim, STAR da bu bölgədə yerləşir.***

***Bu dəfəki səfərimdə İzmirdə çalışan həmkarlarımla – jurnalistlərlə görüşmək qərarına gəldim: onların həyat və yaradıcılığı ilə tanış olmaq, Azərbaycan haqqında fikirlərini öyrənmək maraqlı idi. Qeyd edim ki, İzmirdə 10-dan çox qəzet nəşr edilir. Türkiyənin ən köklü qəzeti olan "Yeni Əsr"in ünvanı da İzmirdir. Beləliklə...***




## I yazı

***1975-ci ildə İzmirdə anadan olan Sərxan Aksüyek ibtidai təhsilini İstanbulda, orta təhsilini isə İzmir Atatürk Liseyində başa vurub. Anadolu Universitetinin iqtisadiyyat fakültəsini bitirib. Egey Universitetində korporativ idarəetmə üzrə magistratura təhsili alıb.***

***1997-ci ildə İzmirdə SKY TV-də jurnalistlik fəaliyyətinə başlayan Aksüyek 1997–1998-ci illərdə "Yeni Əsr" TV-də, 1998–2000-ci illərdə "Ege TV"də proqram prodüseri və ana xəbər aparıcısı vəzifələrində çalışıb. Terror təşkilatı PKK lideri Abdullah Öcalanın 1999-cu ilin fevral ayında Türkiyəyə gətirildiyi əməliyyatın texniki təqib prosesini təşkil edən ABŞ-ın elektron kəşfiyyat sistemi "Echelon"haqqında xəbəri Türkiyədə ilk dəfə o, yayımlayıb. Həmkarımız "Kritik" xəbər proqramının prodüseri və aparıcısı olub. 2001–2009-cu illərdə "Observation Newspaper" və "The Observer" jurnallarında müxbir, redaktor, xəbər meneceri və baş redaktor kimi fəaliyyətini davam etdirib.***

***Sərxan bəy Beynəlxalq və yerli statuslu jurnalistika müsabiqələrində 20-dən çox mükafat qazanıb. 1995–2002-ci illərdə "Cümhuriyyət" qəzetində çoxsaylı məqalələri dərc olunan bu yazar digər məşhur mətbu orqanlarda da iqtisadi statuslu yazıları ilə diqqət mərkəzində olub. O, 2009–2014-cü illərdə "Ege TV"də hər həftə yayımlanan "Real iqtisadiyyat" proqramını təqdim edib. 2009-2016-cı illər arasında Petkim Petrokimya Holding A.Ş-də Korporativ Kommunikasiyalar meneceri vəzifəsində çalışmış, şirkətin "Petkim Yaşam" jurnalını ərsəyə gətirib və baş redaktoru kimi fəaliyyət göstərib.***

***Bir çox qeyri-hökumət təşkilatının idarəçiliyində fəal iştirak edən Sərxan Aksüyek İzmir Jurnalistlər Cəmiyyəti, İqtisadiyyat Jurnalistləri Cəmiyyəti İzmir Şöbəsi, Atatürkçü Düşüncə Dərnəyi, Müasir Həyatı Dəstəkləmə Dərnəyi İzmir Şöbəsi, Milli Təhsil Dərnəyi İzmir Şöbəsi, Enerji Sənayeçiləri və İş Adamları Dərnəyinin üzvüdür. Evlidir, bir övladı var. Ünlü jurnalist İzmirdə fəaliyyət göstərən "Strateji Kommunikasiya Məsləhətçiliyi" qrumunun yaradıcısı və rəhbəridir. Həm də bölgənin məşhur nəşrlərindən olan "Ege Teleqraf" qəzetində "Real İqtisadiyyat" adı ilə köşə yazarı kimi yazmağa davam edir.***

Göründüyü kimi, Sərxan Aksüyek Egey bölgəsinin, eləcə də Türkiynin yaxşı tanıdığı məşhur jurnalistlərdəndir. Uzun illərdir ki, iqtisadi mövzuda təqdim etdiyi yazı və araşdırmaları ilə mətbuatın gündəmindədir. Dəfələrlə ölkəmizdə olub və Azərbaycan–Türkiyə əlaqələri haqqında yazıların müəllifidir. Qarabağda tarixi qələbəmizdən sonra dəfələrlə zəngləşsək də, görüşmək mümkün olmamışdı. 2020-nin əvvəllərində başlayan pandemiya da buna imkan verməmişdi.

... Onunla İzmirdə "Toqatlı Plaza"nın 4-cü mərtəbəsində yerləşən, təsis və rəhbərlik etdiyi etdiyi "Strateji Kommunikasiya Məsləhətçiliyi" qurumunun ofisində görüşdük. Azərbaycanda baş verənləri daim diqqətdə saxladığını, böyük qələbəyə ürəkdən sevindiyini və uzun illər gözlədiyi arzusuna çatdığını bildirdi. "Can Azərbaycan" bütün Türkiyə üçün əzizdir, doğmadır, – deyə fikirlərini bölüşdü. Həmkarımı ünlü iqtisadçı yazar kimi tanıdığımdan ondan Türkiyənin bugünkü iqtisadi vəziyyətindən danışmağı xahiş etdim:

–Siyasi baxışlarımızdan və yanaşmalarımızdan asılı olmayaraq, həmfikir olduğumuz fakt budur: Türk milləti olaraq ötənlərdə enerjimizi gərəksiz müzakirələrlə, gündəmlərlə israf etmişik. Daim seçki gündəmində olan bir ölkə olaraq struktur problemlərimizə diqqət yetirmək, həll yollarını axtarmaq çox vaxt mümkün olmayıb.

Türkiyə iqtisadiyyatı dərin bir böhranın məngənəsindədir. Rəsmi inflyasiya 50 faiz həddinə əsaslansa da, real inflyasiya dəfələrlə yüksəkdir. Bazar, market od tutub yanır... Vətəndaşların bu gün aldıqları məhsulun qiyməti gələn həftə artır. Maaş artımları bir ay ərzində yox olur. Təbii ki, mətbuatın gündəmi bu mövzulardan kənara çıxa bilməz. Amma bununla belə çox nikbinik və bilirik ki, Türkiyə bu sınaqdan da uğurla çıxacaq. Onu da görürük ki, ətrafımızda gələcəyimiz və iqtisadiyyatımızla sıx bağlı olan önəmli hadisələr baş verir. Onlardan biri də "Bir millət, iki dövlət" olduğumuz qardaş Azərbaycanla bağlıdır.

***– Sərxan bəy, Azərbaycan barədə nə düşündükləriniz bizim üçün ikiqat maraqlıdır...***

– 2021-ci il iyununda Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Qarabağın işğaldan azad edilən Şuşa şəhərində imzalanan və buradan ad alan "Şuşa Bəyannaməsi" tərəfdaşlığın zirvəsi olmaqla iki ölkə arasında münasibətləri "strateji müttəfiqlik" səviyyəsinə qaldırdı. Azərbaycan Milli Məclisində təsdiq edilən Şuşa Bəyannaməsi Türkiyə Böyük Millət Məclisində də ratifikasiya edildi. Şübhəsiz ki, bu bəyannaməni 2020-ci ilin noyabrında qazanılan Qarabağ Qələbəsindən kənarda nəzərdən keçirmək mümkün deyil. Azərbaycan Ordusunun 28 illik işğala son qoyduğu bu ədalətli müharibədən sonra Türkiyə ilə Azərbaycanın bağlı qalmış sərhədi və buradan keçən yol gündəmə gəldi. Naxşıvan–Zəngəzur dəhlizi ilə bütövləşən bu yol Türkiyə iqtisadiyyatı və Orta Asiya ilə logistik əlaqəmizin daha qısa və azxərcli olmasına imkan verən həyati bir məsələdir.

Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə nəticələnən 44 günlük müharibədən dərhal sonra dünyaya ünvanlanan bəyanatın bizim üçün ən mühüm bəndi "Zəngəzur dəhlizi" adlı azad tranzit zonası oldu. Bu qısa yol vaxtilə Azərbaycan torpaqları olan indiki Ermənistanın ərazisindən keçir. Türkiyənin sərhəd qonşusu Naxçıvanla Azərbaycanı birləşdirəcək bu dəhliz həm də Türkiyəni Qafqaz və Türküstan ilə birləşdirəcək qan damarı olacaq.

***–Bu, həm də Azərbaycan ilə birbaşa əlaqə, əməkdaşlıqda yeni hüdudlar deməkdir...***

–Azərbaycanın əsas ərazisi ilə onun Naxçıvan bölgəsi arasına xəncər kimi saplanmış Ermənistan ərazisindəki Zəngəzur dəhlizinin açılması ilə ölkələrimiz arasında birbaşa avtomobil əlaqəsi təmin ediləcək. Bununla tarixi İpək yolu əlavə magistral və dəmir yolu əlaqələri ilə canlandırılacaq. Uzaq Şərq və Türk Cümhuriyyətlərindən Türkiyəyə tranzit əlaqə heç bir ölkənin müdaxiləsi, icazəsi və ya razılığı olmadan həyata keçiriləcək.

Bu gün ədalətsiz və əsassız vergilərə, ağır əlavə xərclərə dözmək məcburiyyətində qalan Türkiyə logistikası yeni nəfəs qazanacaq. Xüsusilə Şərqi Anadolu bölgəsində Türkiyə iqtisadiyyatına çox böyük ixracat imkanı yaranacaq. Türk dünyasının xalis idxalçısı olduğu yüzlərlə məhsul Şərqi Anadoludan ən qısa müddətdə ixrac bazarlarına çatacaq. Ən önəmlisi, Türk dünyası ilə iqtisadi, siyasi və mədəni əlaqələr inkişaf edəcək. Qarşıdakı illərdə Türkiyənin enerji təhlükəsizliyini, eləcə də resurs müxtəlifliyini təmin edəcək enerji xətləri də bu dəhliz üzərində inşa ediləcək.

***– II Qarabağ müharibəsi dövründə ən ciddi və ədalətli dəstəyi Türkiyə mətbuatından gördük. Bəs, indiki ortaq hədəflərimiz Türkiyə mətbuatının gündəmində necə yer alır?***

–Təəssüf ki, belə mühüm və strateji bir perspektivi Türkiyə mediasında davamlı oxumaq, xüsusən də televiziyadan əhatəli izləmək mümkün deyil. Lakin bu hədəflərlə bağlı Türkiyə ictimaiyyətinin düzgün məlumatlandırılması və media tərəfindən dəstəklənməsi lazımdır. Bu, Türkiyə və Azərbaycan dövlət orqanlarının və siyasətçilərin əlinin gücləndirilməsi demək olacaq.

Ad çəkmək istəməsəm də, açıq deməliyəm ki, bu dəhlizə qəti şəkildə qarşı çıxan ölkələr sırasında qonşularımız da olub. Onların mediasında bir mərkəzdən idarə olunurmuş kimi görünən tənqid və təhdid kampaniyası davam edir. Bir-birinin ardınca Türkiyə və Azərbaycan əleyhinə xəbərlər diqqətçəkən başlıqlarla dərc olunur. Bu il yanvarın sonlarında yaşadığımız və qosqoca türk sənayesini 72 saat iflas etdirən təbii qaz böhranının Zəngəzur dəhlizindən qaynaqlanmadığını düşünmək də çox sadəlövhlük olardı.

***–Deməli, Türkiyə və Azərbaycan mediası Zəngəzur dəhlizinin beynəlxalq önəmini, onun hamı üçün faydalı olduğunu həm içtimaiyyətə, həm də dünyaya daha yaxşı təqdim etməlidir.***

–Hər iki ölkənin ictimaiyyəti mövcud vəziyyəti yaxşı bilməlidir. Burada medianın üzərinə böyük yük düşür, jurnalistlər Zəngəzur dəhlizinin əhəmiyyətini, iqtisadi səmərəsini, siyasi uğurunu doğru dəyərləndirməli, onun Türk dünyası üçün tarixi əhəmiyyətini xüsusi vurğulamalıdırlar. Bunun üçün Türkiyə və Azərbaycanın jurnalist təşkilatları arasında əlaqələrin intensivliyinə və qısa müddətdə bu mövzuda geniş təmasların qurulmasına ciddi ehtiyac var. Türkiyədən olan həmkarlarımıza Azərbaycanın işğaldan azad olunmuş bölgəsinə səfərlər təşkil edilməli və onlara hadisələri yerindəcə təhlil etmək imkanı yaradılmalıdır. Medianın Türkiyə və Azərbaycanın ictimai rəyinə doğru-dürüst məlumat verməsi ilə iki qardaş ölkənin dövlət orqanlarının fəaliyyətinə dəstək olmaqla, həm də qərarvermə proseslərini sürətləndirəcək.

***–Sərxan bəy, sizin mətbuatda gedən yazılarınızın birində belə bir fikir diqqətimi cəlb etdi: Zəngəzur dəhlizi ilə Atatürkün 100 illik arzusu gerçək olur...***

–Türkiyənin strateji və iqtisadi maraqları üçün həyati əhəmiyyət kəsb edən Zəngəzur dəhlizi həm də Atatürkün strateji zəkası ilə 100 illik arzusunun reallaşması deməkdir. Baxın necə? Qurtuluş savaşı zamanı Türkiyə şərq sərhədlərinin təhlükəsizliyini təmin etmək və məhdud silahlı qüvvələrini Qərbi Anadoluya cəmləşdirmək üçün 1921-ci il martın 16-da Sovet Rusiyası ilə Moskva müqaviləsi imzaladı. Müqavilənin ən mühüm maddəsi Naxçıvanın statusunun necə olacağı idi. Torpaqlarını işğaldan xilas etmək üçün böyük hərbi hazırlıq keçən Ali Baş Komandan Mustafa Kamal Paşa ölkəsinin təkcə bu gününü deyil, gələcəyini də düşünür, bir-birinin ardınca strateji gedişlər edirdi. Bunlardan biri də Naxçıvanla bağlı idi.

Türkiyə Cümhüriyyəti o vaxtdan Naxçıvanın mövcudluğuna zəmanət daşıyır. Müqaviləyə əsasən, Naxçıvan ya Rusiyanın tərkibində qalmalı, ya da Azərbaycana verilməli idi. Atatürk, şübhəsiz ki, Naxçıvanın üçüncü dövlətə verilməsini istəmirdi. Burada üçüncü dövlət Ermənistan idi. Əgər Naxçıvan Ermənistana verilsəydi, Türkiyə ilə Azərbaycan, eləcə də Türküstan ilə əlaqə tamamilə kəsiləcək və heç vaxt bərpa olunmayacaqdı.

Bir tərəfdən müstəqillik uğrunda mübarizə aparan Ankara rəhbərliyi, digər tərəfdən də bu mühüm amili nəzərdən qaçırmadı. Atatürkün "Türk qapısı", Şərq Cəbhəsi Komandanı Kazım Qarabəkir Paşanın "Şərq qapısı" kimi təqdim etdiyi Naxçıvan strateji durumuna görə və Türk Cümhuriyyətləri ilə Türkiyə arasında quru əlaqəsi ilə xüsusi məna kəsb edirdi. Sovet tərəfi ilə danışıqlar qrupunun rəhbəri olan Yusuf Kamal (Tengirşenk) Naxçıvanın taleyinın necə olacağı ilə bağlı Mustafa Kamaldan qəti göstəriş almışdı. Müqavilə nəticəsində Naxçıvan Azərbaycanın tərkibinə verildi, Türkiyə və Sovet Rusiyası isə "Qarant ölkə" statusu aldı. 1921-ci il oktyabrın 13-də bağlanan Qars müqaviləsi ilə zaminin hüquqları təsdiq edildi.

***–Bütün bunlar o deməkdir ki, ilk dəfə Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi, medianın gündəminə və rəsmi sənədlərə də "Zəngəzur dəhlizi" adı ilə düşən bu yol böyük Atatürkün 100 il öncəki arzusunu gerçəkləşdirdi.***

–Bəli, ruhu şad olsun, Mustafa Kamal Paşanın 100 il əvvəl istədiyinə bu gün Türk dünyası nail oldu. O dövrdə Azərbaycan Respublikasının rəhbəri Nəriman Nərimanovla çox yaxın münasibətdə olan Mustafa Kamalın ən mühüm siyasi qələbələrindən biri də Naxçıvanın statusu olmuşdur. Bununla belə, daha bir problem var idi. O zaman Naxçıvanın sərhədləri Türkiyə ilə tam birləşdirilməmişdi. Arada İrana məxsus kiçik bir torpaq sahəsi olub ki, bu da iki ölkə arasında sərhəd qapısının açılmasına mane olub.

Bu problemi Atatürk xüsusi qaydada həll edib. Deyilənə görə, o, bu torpağı qonşu dövlətdən qızıl pul ilə alıb, Türkiyə ilə Naxçıvanın birləşməsini təmin edib. Bu gün Naxçıvanla Türkiyə arasında 11 kilometrlik qısa sərhəddə yerləşən Dilucu sərhəd qapısı Türkiyəni Azərbaycanla sərhəd qonşusu eləyib. Türk dünyasının birliyi həm də Mustafa Kamalın 100 illik arzusu idi. Azərbaycan xalqının tarixi qələbəsi bu reallığı da təmin etdi.

***– Maraqlı söhbət üçün cox sağ olun.***

***Namiq ƏHMƏDOV,***
***"Xalq qəzeti"***

**İzmir – Bakı**